

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 165 (20.819)

*5 sentyabr 2013-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də ölkəmizin cənub bölgəsinə səfəri çərçivəsində Salyan rayonuna gəlmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də Salyanda Heydər Əliyev Mərkəzinin, Salyan Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışlarında iştirak etmiş, Salyanda Bayraq Meydanında yaradılan şəraitlə tanış olmuşdur.

* * *

Sentyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Salyana səfərini başa çatdıraraq Biləsuvar rayonuna gəlmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də Biləsuvar şəhərinə içməli suyun verilməsi mərasimində, Heydər Əliyev Mərkəzinin, Yeni Azərbaycan Partiyası rayon təşkilatının yeni inzibati binasının açılışlarında iştirak etmiş, rayon İcra Hakimiyyətinin yeni inzibati binasında yaradılmış şəraitlə tanış olmuşdur.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də Biləsuvara səfərini başa çatdıraraq Cəlilabad rayonuna gəlmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəlilabadda Qarazəncir-Qarakazımlı-Bayxanlı avtomobil yolunun, “Fidan” körpələr evi-uşaq bağçasının, Cəlilabad Rayon Mərkəzi Xəstəxanasının açılışlarında iştirak etmişdir.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yardımlı və Masallı rayonlarında da bir sıra sosial obyektlərin açılışlarında iştirak etmişdir.



# Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Elektron kitabxanası istifadəyə verilmişdir

Sentyabrın 4-də Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Elektron kitabxanasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış mərasimində iştirak etmişdir.

Tədbirdə çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev demişdir ki, bu gün muxtar respublikada elmin inkişafına hərtərəfli qayğı göstərilir. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinə də bu qayğıdan pay düşmüş, bölmənin maddi-texniki bazası gücləndirilmiş, əməkdaşların fəaliyyəti üçün lazımi şərait yaradılmışdır. Bu gün istifadəyə verilən elektron kitabxana da bu sahədə həyata keçirilən tədbirlərin davamıdır. Yaradılan şərait əməkdaşların öz elmi tədqiqatlarını səmərəli aparmalarına, onların elmi fəaliyyətinin daha da gücləndirilməsinə imkan verəcəkdir. Akademik İsmayıl Hacıyev yaradılan şəraitə görə kollektiv adından minnətdarlığını bildirmiş, bundan sonra daha da səylə çalışacaqlarına söz vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 1972-ci ildən fəaliyyət göstərən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin kitabxanasının elektron kitabxana statusu aldığını bildirmiş, bu münasibətlə bölmənin əməkdaşlarını təbrik edərək demişdir: “Kitabxanaya və kitablara olan diqqət hər bir ölkənin inkişaf və tərəqqisində başlıca şərtdir. Qədim zamanlardan etibarən inkişaf etmiş ölkələrdə kitabxanalara həmişə xüsusi diqqət göstərilmişdir. Ümummilli liderimiz Heydər Əliyev də kitabxanalara yüksək qiymət verərək deyirdi: ***“Kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir”.***

Ali Məclisin Sədri demişdir: “Bu gün Azərbaycan sürətlə inkişaf edən, tərəqqiyə qovuşan ölkələr sırasındadır. Ümummilli liderimizin müəyyənləşdirdiyi siyasi xətt ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bütün sahələrdə uğurla davam etdirilir. Təhsil sahəsində də ardıcıl tədbirlər görülür. Hər il yüksək balla ali məktəblərə qəbul olunan gənclərin, eləcə də xarici ölkələrdə təhsil alan tələbələrin sayı artır. Eyni zamanda ölkəmizdə elm ilə iqtisadiyyatın fəaliyyəti birləşdirilir, informasiya-kommunikasiya texnologiyaları təsərrüfat-iqtisadi həyatın bütün sahələrinə tətbiq edilir. Çünki müasir dünyada inkişafı informasiya texnologiyaları olmadan təsəvvür etmək mümkün deyil. Bu gün istifadəyə verilən elektron kitabxana da Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin işçilərinin digər xarici ölkələrin elektron kitabxanaları ilə əlaqə yaratmalarına, öz tədqiqat işlərini daha səmərəli aparmalarına və mütəxəssis kimi yetişmələrinə imkan verəcəkdir”.

Ali Məclisin Sədri qeyd etmişdir ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda informasiya-kommunikasiya texnologiyalarının inkişafına xüsusi diqqət göstərilir. Ali, orta ixtisas və ümumtəhsil məktəblərinə 600-ə yaxın elektron lövhənin verilməsi, elm və təhsil müəssisələrinin kompüterləşdirilməsi, elektron hökumətin qurulması, məktəblərdə hər 15 şagirdin bir kompüterlə təmin edilməsi muxtar respublikamızda informasiya-kommunikasiya texnologiyaları sahəsində həyata keçirilən tədbirlərdəndir. Bu gün muxtar respublikada elektron kitabxanaların yaradılması sahəsində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublika Kitabxanasında, Ali Məclisin Naxçıvanşünaslıq Mərkəzində və Naxçıvan Dövlət Universitetində elektron kitabxanalar, eləcə də Naxçıvan Regional İnformasiya Mərkəzində məhdud fiziki imkanlılar üçün audio və elektron kitabxana xidməti yaradılmışdır. Bu gün isə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yeni Elektron kitabxanası istifadəyə verilir.

Ali Məclisin Sədri elektron kitabxanalarda müasir texniki avadanlıqların quraşdırılması ilə yanaşı, onlardan səmərəli istifadənin vacibliyinə də diqqət cəlb edərək demişdir: “Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin əməkdaşları elektron kitabxanadan səmərəli istifadə etməli, alim və ziyalılarımızın dünya səviyyəsində tanıdılmasında, yeni elmi əsərlərin, monoqrafiya və dissertasiyaların yazılmasında kitabxananın imkanlarından lazımınca bəhrələnməlidirlər”.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin bölmənin əməkdaşları tərəfindən layiqincə yerinə yetiriləcəyinə əminliyini bildirmiş, kollektivə işlərində uğurlar arzulamış, açılışı bildirən lenti kəsmişdir.

Naxçıvan Muxtar Respublikasının rabitə və informasiya texnologiyaları naziri Rövşən Məmmədov Ali Məclisin Sədrinə elektron kitabxananın fəaliyyəti barədə məlumat vermişdir. Qeyd olunmuşdur ki, elektron kitabxananın yaradılması məqsədilə 12 terabayt yaddaşı olan əsas və ehtiyat server quraşdırılmış, elektron oxu zalı üçün 6 oxucu yeri yaradılmışdır. Kitabxana lazımi avadanlıqlarla təmin edilmiş, surətköçürmə aparatı, printer, elektron daşıyıcılarda olan məlumatların vizual və səsli izlənməsi üçün 1 ədəd televizor və mobil elektron lövhə qoyulmuşdur. Surətköçürmə aparatı kitabların elektron versiyalarının yaradılmasına və köhnə kitabların bərpasına imkan verir. Hazırda kitabxananın fondunda 33 minə yaxın kitab vardır.

Kitabxanaya fiber-optik kabel çəkilmiş, daxili şəbəkə yaradılmış və internet səhifəsi hazırlanmışdır. Elektron kitabxananın resursları oxuculara lokal şəbəkə və internet vasitəsilə təqdim olunur. Bu da fondun mühafizəsinə, oxucuların zamandan və məkandan asılı olmayaraq, istənilən vaxt kitabxananın xidmətlərindən səmərəli istifadə etmələrinə şərait yaradır.







*Ardı 2-ci səhifədə*

Kitabxananın ***www.e-kitab.ameanb.nmr.az*** internet saytı dünyadakı istənilən elektron kitabxana ilə informasiya mübadiləsi aparmağa imkan verəcəkdir. İlkin mərhələdə kitabxanada 788 kitabın elektron kataloqu, 246 kitabın isə tam mətnli elektron versiyası hazırlanmışdır. Saytın "Kitabxana", "Elektron kataloq", "Bizimlə əlaqə" bölmələrində kitabxana ilə operativ əlaqə saxlamaq, elektron axtarış xidmətlərindən istifadə etmək, dövri mətbuatla tanış olmaq imkanı vardır. İnternet saytında kitablar haqqında biblioqrafik məlumat və kitabların elektron variantları, "Media" bölməsində isə audio-kitablar və videofayllar yerləşdirilmişdir. "Elektron kitablar" bölməsində hər bir elm sahəsi üzrə ədəbiyyatlarla təchiz olunan ayrıca keçidlər vardır. Bu da oxuculara kitabları həm əlifba sırası üzrə, həm də müxtəlif elm sahəsi üzrə axtarmaq imkanı verir. "Faydalı linklər" bölməsində isə digər kitabxanaların internet saytlarından istifadə etmək mümkündür.

Elektron kitabxana ilə tanışlıqdan sonra alim və ziyalılarla görüşən Ali Məclisin Sədri demişdir: "Elmin inkişafı göstərilən dövlət qayğısı ilə yanaşı, həm də bu sahəyə qəlbən bağlı olan insanların fəaliyyətindən asılıdır. Muxtar respublikada bu işlərin həyata keçirilməsi üçün hərtərəfli şərait yaradılmış, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi qısa müddət ərzində formalaşaraq mötəbər elm müəssisəsinə çevrilmişdir. Bölmə əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi də diqqət mərkəzində saxlanılır, əməkhaqları artırılır. Bütün bunlar Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin kollektivi qarşısında mühüm vəzifələr qoyur. Bölmənin əməkdaşları daim öz üzərlərində işləməli, muxtar respublikanın təbii sərvətlərindən səmərəli istifadə olunmalı, bu sahədə elmi-tədqiqat işləri aparılmalı, Naxçıvanın dünyada tanıdılması istiqamətində ardıcıl tədbirlər görülməlidir".

# Naxçıvan Muxtar Respublikasında biometrik pasportların verilməsinə başlanılmışdır





Muxtar respublikada müasir xidmət növlərinin yaradılması, dövlət idarələrində vətəndaşlara göstərilən texniki xidmətlərin müasir standartlar səviyyəsində qurulması diqqət mərkəzində saxlanılır. Vətəndaşların biometrik pasportlarının hazırlanması da bu istiqamətdə həyata keçirilən tədbirlərin davamıdır.

Sentyabrın 4-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Pasport-Qeydiyyat və Miqrasiya Şöbəsində ilk biometrik pasportun təqdimatı olmuşdur.

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-leytenant Əhməd Əhmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova raport vermişdir.

Bildirilmişdir ki, şöbədə biometrik pasportların verilməsi üçün lazımi şərait yaradılmış, müasir avadanlıqlar quraşdırılmışdır. Biometrik pasportların işlənməsi və çapı qısa zamanda həyata keçirilir. Mövcud texniki şərait gün ərzində 150-180 nəfərə biometrik pasportların hazırlanıb verilməsi imkanı yaradır.

Muxtar respublikada ilk biometrik pasport Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova təqdim edilmişdir. Bununla da, muxtar respublikada yeni nəsil biometrik pasportların verilməsinə başlanılmışdır.

Sonra Ali Məclisin Sədri ali məktəblərə qəbul olunmuş 5 tələbəyə biometrik pasportlarını təqdim etmiş, onlara təhsildə uğurlar arzulamışdır.

Tələbələr muxtar respublikada gənclərə göstərilən diqqət və qayğıya, yaradılan şəraitə görə minnətdarlıqlarını bildirmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



# Payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə olunur

***2013-2014-cü ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində də müzakirə olunub.***

Tədbirdə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxış edərək bildirib ki, qarşıya qoyulan vəzifələrin vaxtlı-vaxtında yerinə yetirilməsində nazirliyin hər bir əməkdaşı, tabelikdə olan qurumlar məsuliyyət daşıyırlar. Qeyd olunub ki, payız-qış mövsümünü mütəşəkkil səviyyədə başa vurmaq üçün İlham Əliyev adına Olimpiya İdman Kompleksi, Şərur Olimpiya İdman Kompleksi, Naxçıvan Muxtar Respublika Stadionu və İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbində payız-qış mövsümündə elektrik enerjisi, qaz, rabitə və digər xidmətlərdən düzgün istifadə olunması, israfçılığa yol verilməməsi təmin edilməlidir. Sayğaclara texniki baxış keçirilməli, göstərilən sahələrə nəzarət artırılmalıdır.

Təsərrüfathesablı idman müəssisələrində elektrik enerjisi və qaz xidməti haqlarının ödənilməsi vaxtında təmin olunmalı, bu istiqamətdə nöqsanların baş verməməsinə ciddi diqqət yetirilməlidir.

O da vurğulanıb ki, payız-qış mövsümünə hazırlığın əsas məsələsi kimi nazirliyin, o cümlədən tabeli və nazirliyin strukturuna daxil olan təşkilatların yerləşdiyi inzibati binaların mühafizəsinə ciddi nəzarət olunmalıdır. Gözətçilər və ocaqçılar təlimatlandırılmalı və xüsusi geyim dəstləri ilə təchiz edilməlidirlər.

Bildirilib ki, Gənclərlə iş, Kütləvi bədən tərbiyəsi və idman şöbələri, nazirliyin strukturuna daxil olan rayon (şəhər) gənclər və idman idarələri tərəfindən gənclərin payız-qış mövsümündə idmanla müntəzəm məşğul olmalarına, idman yarışlarında iştirak etmələrinə şərait yaradılmalıdır.

Nazirliyin tədbirlər planının icrası Gənclərlə iş, Kütləvi bədən tərbiyəsi və idman şöbələri, gənclər və idman idarələri tərəfindən yüksək səviyyədə davam etdirilməli, payız-qış mövsümündə digər tədbirlərin keçirilməsi üçün əlavə tədbirlər planı hazırlanmalıdır.

Bu müddətdə əlaqədar təşkilatlarla əməkdaşlıq möhkəmləndirilməli, tədbirlərə aidiyyəti təşkilatların nümayəndələri dəvət edilməlidir.

Sonra nazirliyin şöbə müdirləri, şəhər və rayon gənclər və idman idarələrinin rəisləri 2013-2014-cü ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar görülmüş və görüləcək işlər barədə məlumat veriblər.

Tədbirə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov yekun vurub.

***Naxçıvan Muxtar Respublikası***
***Gənclər və İdman Nazirliyinin***
***mətbuat xidməti***

* * *

*"Muxtar respublikanın bütün rayonlarında olduğu kimi, Culfa rayonunda da 2013-2014-cü ilin payız-qış mövsümünə hazırlığın vəziyyəti daim diqqət mərkəzində saxlanılır, bununla əlaqədar qarşıya qoyulan vəzifələrin icrası məqsədilə təxirəsalınmaz tədbirlər həyata keçirilir. Enerji təminatı sahəsində görülən işlərin davamı olaraq, cari ildə rayonun bir sıra kəndlərində elektrik naqillərinin standartlara uyğun çəkilməsi, köhnəlmiş elektrik dirəklərinin yeniləri ilə əvəzlənməsi istiqamətində işlər başa çatdırılıb. Əhalinin elektrik enerjisi ilə etibarlı təmin edilməsinə göstərilən dövlət qayğısı sayəsində ötən müddətdə istehlakçılara fasiləsiz elektrik enerjisi və təbii yanacaq verilib, elektrik enerjisi və təbii qaz təminatında heç bir problem yaranmayıb".*

Bu fikirləri Culfa Rayon İcra Hakimiyyətində keçirilən payız-qış mövsümünə hazırlıqla bağlı müşavirədəki çıxışında rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev səsləndirib. İcra başçısı bildirib ki, əhalinin və təsərrüfat subyektlərinin enerjiyə olan tələbatının ödənilməsi, eləcə də digər infrastruktur sahələrinin qış mövsümündə normal fəaliyyət göstərməsi üçün indidən hazırlıq işləri görülməli, lazımi mal-material ehtiyatı yaradılmalıdır.

Qeyd olunub ki, payız-qış mövsümündə təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin fasiləsiz fəaliyyəti təmin olunmalıdır. Son illərdə rayonda aparılan tikinti-quruculuq tədbirləri nəticəsində əksər təhsil, səhiyyə və mədəniyyət obyektləri istilik sistemləri ilə təmin olunub. Lakin bəzi təşkilatların qızdırılmasında maye qaz və neft məhsullarından istifadə edilir. Bu müəssisələrin qış mövsümündə normal fəaliyyətini təmin etmək üçün qaz və neft məhsulları ehtiyatı yaradılmalı, tələb olunan qaz və neft məhsullarının alınması məqsədilə müvafiq qaydada sifariş verilməlidir. Aidiyyəti təşkilatlar alınmış maye qaz və neft məhsullarının təyinatı üzrə istifadəsinə diqqəti artırmalıdırlar.

Şəhər və kəndlərdə əhaliyə keyfiyyətli xidmət göstərilməsi üçün səhiyyə müəssisələrinin yanacaq və dərman preparatları ilə təminatı gücləndirilməlidir.

Vurğulanıb ki, qış aylarında ucqar kəndlərə fasiləsiz nəqliyyat xidmətinin təmin edilməsi məqsədilə marşrut avtobus və mikroavtobusların qrafikə uyğun hərəkəti diqqətdə saxlanılmalı, marşruta çıxan nəqliyyat vasitələrinin texniki sazlığına nəzarət gücləndirilməlidir. Bundan başqa, yolların qar və buzdan təmizlənməsi üçün istifadə olunacaq maşın və mexanizmlərin sazlığı, işlək vəziyyətdə olması yoxlanılmalı, ehtiyat hissələri ilə təminata diqqət artırılmalı və əlavə qum ehtiyatı yaradılmalıdır.

"Qış aylarında rayonda dayanıqlı rabitənin təmin olunması üçün mövcud rabitə dayaqlarının və xətlərinin standartlara uyğunlaşdırılması istiqamətində görülən tədbirlər davam etdirilməlidir", – deyən icra başçısı onu da əlavə edib ki, elektrik xətlərinə yaxın məsafədən çəkilmiş rabitə xətlərinin yeri dəyişdirilərək elektrik xətlərindən kənarlaşdırılmalı, rabitə xətlərinin standartlara uyğun çəkilməsi təmin edilməlidir.

Müşavirədə Culfa şəhər inzibati ərazi dairəsi üzrə nümayəndə İbrahim Əliyevin, rayon Elektrik Şəbəkəsinin direktoru Səid Həşimovun, Qaz İstismarı İdarəsinin rəisi Elxan Behbudovun çıxışları olub.

Tədbirə Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev yekun vurub.

**Xəbərlər şöbəsi**

# Kəngərli rayonunda sahibkarlığın inkişafı üçün geniş imkanlar var

## *Hərtərəfli dövlət qayğısı bu sahəyə marağı daha da artırıb*

***Sahibkarlığın inkişafı muxtar respublikamızda diqqət mərkəzində saxlanılan sahələrdən birinə çevrilmişdir. Ümumilikdə isə son illər aparılan uğurlu islahatlar iqtisadiyyatın bütün sahələrinin inkişafına təkan vermişdir. Güclü investisiya qoyuluşu, müasir texnologiyaların tətbiqi, idarəetmə təcrübəsi rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, mövcud müəssisələrin yenidən qurulmasına, yeni iş yerlərinin açılmasına və nəticə etibarı ilə, xalqın maddi rifahının yüksəldilməsinə şərait yaratmışdır.***

Bunun nəticəsidir ki, təkcə 2012-ci ildə muxtar respublikada əvvəlki illə müqayisədə 15,7 faiz çox, daha dəqiq desək, 799 milyon 492 min manatlıq sənaye məhsulu istehsal olunmuşdur. Sənaye sahəsində inkişafın dinamikliyinin qorunub saxlanması üçün yeni istehsal və xidmət obyektlərinin fəaliyyətə başlaması davamlı olaraq dəstəklənməkdədir. 2012-ci ildə yerli xammaldan istifadəyə əsaslanan və daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsul istehsal edən müxtəliftəyinatlı istehsal və xidmət müəssisələri yaradılmışdır. Həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikada 344 növdə yerli məhsul istehsal olunmaqdadır. Bu məhsulların 115 növü ərzaq, 229 növü qeyri-ərzaq məhsullarıdır. 106 növdə ərzaq və 224 növdə qeyri-ərzaq olmaqla, ümumilikdə, 330 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

"Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsi bu sahədə qazanılan nailiyyətləri daha da artırmaqdadır. Burada bir məsələni də qeyd etmək yerinə düşər ki, sahibkarlıq subyektlərinə dövlət maliyyə dəstəyinin göstərilməsi, emal və istehsal müəssisələrində yerli xammaldan istifadənin təşviq olunması da belə uğurların əldə edilməsində başlıca amillərdəndir. Cari ilin mart ayının 29-da Naxçıvan Biznes Mərkəzinin açılışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Yerli istehsalın inkişaf etdirilməsi daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın aradan qaldırılmasında mühüm əhəmiyyətə malikdir. Yeni yaradılmış müəssisələrin bir tərəfdən daxili tələbatın ödənilməsinə yönəldilməsi, digər tərəfdən isə məhsul istehsalında onların yerli xammaldan istifadə etmələri hazır məhsulun daha keyfiyyətli olmasına və ucuz qiymətə başa gəlməsinə imkan yaradır... İqtisadi və sosial inkişafın təmin olunmasında sahibkarlıq subyektlərinə maliyyə dəstəyi göstərilməsinin əhəmiyyəti çoxdur".***

Bu istiqamətdə həyata keçirilən tədbirlərin müsbət nəticələrini Kəngərli rayonunun timsalında da görmək mümkündür. Qeyd edək ki, mövcud imkanlar və hərtərəfli dövlət qayğısı hesabına bu gün bölgədə 10-dan artıq çörəkbişirmə müəssisəsi, dəyirman, həmçinin quşçuluq, balıqçılıq, gəc və kərpic istehsalı sahələri fəaliyyət göstərir.

Bu günlərdə bir neçə istehsal müəssisəsində olduq. Məlumat üçün bildirək ki, rayonun ən böyük yaşayış məntəqələrindən biri olan Qarabağlar kəndində istehsal müəssisələri çoxdur. Onlardan biri "Qənimət" çörəkbişirmə müəssisəsidir. Müəssisənin rəhbəri Həmzə Qəmbərov bildirdi ki, 2009-cu ilin oktyabr ayında fəaliyyətə başlayıblar. Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondundan 2 il müddətinə 15 min manat kredit götürüblər. Müəssisə səmərəli fəaliyyət göstərdiyi üçün bu vəsaiti 1 il 6 ayda ödəyiblər. Müəssisədə 4 işçi çalışır. Onların həmısı sığorta olunub, adlarına tibbi kitabça açılıb. İşçilər müntəzəm olaraq tibbi müayinədən keçirilirlər. Burada sanitar-gigiyenik qaydalara ciddi riayət olunur. Kiçik bir istehsal sahəsini əhatə edən müəssisənin ərazisi gülçiçəyə bürünüb. Buraya daimi su xətti çəkilib. Müəssisədə mətbəx, hamam, çörək və un anbarları inşa olunub. Əsasən, sifarişlə işləyən müəssisənin məhsullarına tələbat getdikcə artmaqdadır. Odur ki, sahibkar gələcəkdə müəssisənin istehsal gücünü artırmaq barədə düşünür.

"Asnı" un dəyirmanı və çörək istehsalı sahəsi də Qarabağlar kəndində fəaliyyət göstərir. Sahibkar Məmiş Dünyamalıyev deyir ki, bu müəssisə 2003-cü ildə dəyirman kimi yaradılıb. 2005-ci ildə isə burada çörəkbişirmə sahəsi fəaliyyətə başlayıb. Dəyirmanda Türkiyədən alınmış avadanlıqlardan istifadə olunur. Gün ərzində 10 ton məhsuluüyütmə gücünə malikdir. Çörəkbişirmə sahəsində istifadə edilən avadanlıqlar isə İran İslam Respublikasından gətirilib. Bu sahədə zəngin təcrübə qazanan sahibkar söhbət zamanı onu da bildirdi ki, 1 saatda 100 kiloqram çörək istehsal olunur. Məhsul özlərinə məxsus olan avtomaşınla muxtar respublikanın müxtəlif ticarət obyektlərinə göndərilir. Müəssisənin yerləşdiyi ərazidə bir un, 5 taxıl anbarı, hamam, yeməkxana yaradılıb. İstehsal sahəsində 5, dəyirmanda 2 havalandırma qurğusu quraşdırılıb. Burada 6 nəfər işlə təmin olunub. Əraziyə daimi su və qaz xətti çəkilib.

Rayon ərazisində yetişdirilən taxıl məhsulları bu dəyirmanda üyüdülür. Müəssisəyə gəlişimizdə bunun şahidi olduq. Bu mövsümdə 30 hektar sahədən taxıl tədarük edən Xok kənd sakini Xaləddin Zeynalov bildirdi ki, hər il öz məhsulunu bu dəyirmanda üyütməyə gəlir. Çünki bu müəssisə muxtar respublikada nümunəvi istehsal sahəsi kimi tanınır. Dəyirmanda yaradılmış şəraitdən razılığını bildirən X.Zeynalov onu da vurğuladı ki, məhz belə şərait hesabına burada üyüdülmüş məhsul keyfiyyətinə görə məhsul sahiblərini razı salır. Rəhim Qəmbərov da onun dediklərini təsdiq etdi.

Qarabağlar kəndində Dağbəyi Qasımovun rəhbərlik etdiyi fərdi quşçuluq təsərrüfatı da öz imkanlarını getdikcə genişləndirməyə çalışır. 2012-ci ilin əvvəllərində Sahibkarlığa Kömək Fondundan 40 min manat kredit götürən sahibkar fəaliyyətə başlayıb. Bir qədər sonra ikinci istehsal sahəsinin tikintisi, təsərrüfata dəvəquşu alınması, onların saxlanması üçün daha 26 min manat kredit götürüb. Təsərrüfatda dəvəquşular üçün bir ferma, quşlar üçün iki ferma, yem anbarı, mətbəx, iş otağı yaradılıb. Hazırda quşçuluq təsərrüfatında 5-6 min arası quş saxlamaq imkanları var. Burada qaz, ördək, hind toyuğu saxlanılır və satışa çıxarılır. Öyrəndik ki, təsərrüfat fəaliyyətə başlayarkən cücələrin yemlənməsi üçün İran İslam və Türkiyə respublikalarından qida məhsulları gətirilirdisə, indi muxtar respublikada hazırlanan məhsullardan istifadə olunur. Sahibkar bildirdi ki, özləri də bu işlə məşğul olurlar. Belə ki, cari ildə 24 hektar sahədən taxıl tədarük olunub, 1,2 hektar sahədə yonca, 1 hektar sahədə qarğıdalı əkilib. Bu isə imkan verib ki, öz istehsalları ilə təsərrüfatın yem məhsullarına olan tələbatını ödəyə bilsinlər.

Muxtar respublikamızda tikinti-quruculuq işlərinin geniş vüsət alması tikinti materialları istehsal edən müəssisələrin də sayının artması zərurətini meydana çıxarıb. Bu səbəbdəndir ki, cari ilin may ayında rayonda daha bir istehsal müəssisəsi yaradılıb. Xok kəndində fəaliyyətə başlayan müəssisə kərpic istehsalı ilə məşğuldur. Dörd nəfərin daimi işlə təmin edildiyi "Urfan" kərpic istehsalı müəssisəsinin məhsulları ilk günlərdən keyfiyyəti ilə seçilir. İlk olaraq müəssisə üçün 480 kvadratmetr sahədə istehsal sahəsi inşa olunub. Əraziyə elektrik xətti çəkilib, müəssisənin daimi su ilə təminatı üçün artezian qazılıb. Burada istifadə edilən xammal yerli istehsal hesabına ödənilir. Ötən müddət ərzində istehsal olunan kərpicin standartlara uyğunluğu yoxlanılaraq satışına icazə verilib. Müəssisə öz işini, hələlik, fərdi sifarişlər əsasında qurub.

Qeyd edək ki, muxtar respublikamızda sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi üçün yaradılan şərait və mövcud imkanlar bu sahədə xeyli uğurlar qazanılmasına stimul olmaqla yeni istehsal sahələrinin yaradılmasına marağı artırıb. Göründüyü kimi, Kəngərli rayonunun sakinləri də bu imkanlardan bacarıqla istifadə etməyə səy göstərirlər. Bu isə daxili bazarda yerli istehsalın xüsusi çəkisinin artmasına, insanların maddi rifah halının yaxşılaşmasına öz müsbət təsirini göstərir.

**Muxtar MƏMMƏDOV**

# Növbəti kurs təşkil edilib

Muxtar respublikamızda iqtisadiyyatın dinamik inkişafı, istehsalatda müasir texnologiyaların tətbiqi, yeni infrastruktur layihələrin icrası ixtisaslı kadrlara olan tələbatı daha da artırmışdır. Bu mənada peşə ixtisaslı kadrlara olan tələbatın ödənilməsi, habelə əhalinin müasir peşə təhsili almaq imkanlarının təmin edilməsi dövlətimizin diqqət mərkəzindədir. Peşə təhsili ümumi təhsilin tərkib hissəsi olub, ölkənin sosial-iqtisadi inkişafına təkan verən aparıcı sahələrdən biridir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 28 noyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Naxçıvan Regional Peşə Tədris Mərkəzinin yaradılması əmək bazarında ixtisaslı kadrlara olan tələbatın ödənilməsində mühüm rol oynayır. Bu mərkəzdə məşğulluq xidməti orqanları tərəfindən göndərilən işaxtaran vətəndaşların əmək bazarının tələbinə uyğun peşələrə yiyələnməsi, ixtisaslarının artırılması, onların fərdi məşğulluğunun təmin edilməsi, həmçinin müxtəlif idarə, müəssisə və təşkilatlara ixtisaslı kadrların hazırlanması məqsədilə peşə hazırlığı kursları təşkil olunur.

Adıçəkilən tədris mərkəzində "qazanxana maşinisti" peşəsi üzrə növbəti kursun keçirilməsinə başlanılıb. Kursda qazanxana qurğusuna və ona xidmət edən texniki vasitələrə texniki xidmət və onların təmiri, texniki vasitələrin istismarı qaydaları, təhlükəsizlik texnikası və yanğından mühafizə qaydaları tədris olunacaq.

Qeyd edək ki, bu kurs avqustun 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədən irəli gələn vəzifələrin icrası istiqamətində görülən işlərin davamıdır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

**Ölkənin iqtisadi inkişafı dövlətin bu sahədə yeritdiyi mühüm tənzimləmə tədbirlərinə əsaslanır. Belə vacib funksiyaları həyata keçirmək üçün dövlət lazımi maliyyə vəsaitlərindən istifadə edərək öz sosial-iqtisadi inkişaf siyasətini həyata keçirir. Bu baxımdan mühüm iqtisadi tənzimləmə mexanizmlərindən biri olan maliyyə-büdcə münasibətləri ilə əldə edilən göstəricilər, son nəticə etibarilə, özünü güclü dövlətlərə xas olan tarazlı inkişaf və yüksək həyat səviyyəsində göstərir.**

# Geniş büdcə, güclü dövlət və möhkəm iqtisadiyyat

## *Növbəti əməkhaqları artımı bunu bir daha təsdiqlədi*

İqtisadiyyat mövzusu həmişə aktualdır və iqtisadi inkişafın müxtəlif məsələləri ayrı-ayrı şəxslərdən tutmuş dövlət rəhbərləri səviyyəsinədək hər zaman müzakirələr obyekti olub, bir çox hallarda gəlir və xərclərin düzgün idarə olunması qayğısı ilə ifadə olunur. Belə ki, hər bir subyekt öz maliyyə vəziyyətinə daim nəzarət etdiyi kimi, dövlətin də qarşısında öz gəlir və xərclərini günün reallıqları əsasında tərtib etməklə artan büdcəyə malik olmaq vəzifəsi dayanır. Çünki geniş büdcə möhkəm iqtisadiyyata malik olan güclü dövlətin əlində ən mühüm tənzimləmə aləti və ölkə əhalisinin yaxşı yaşamasının bir nömrəli qarantıdır.

Büdcənin bir çox funksiyaları vardır və onlardan müvəffəqiyyətlə istifadə olunması dövlət qarşısında duran mühüm məsələlərdəndir. Hamının arzusunda olduğu sosial ədalət prinsipləri əsasında yaşaya bilmək üçün yenidən bölgü proseslərini tənzimləmək məhz bu baxımdan yalnız dövlətin gücünün çata biləcəyi bir məsələdir. Dövlət büdcədə toplanmış vəsaitlər hesabına bu vəzifənin həllinə çalışır. Maddi nemətlərin istehsalı üzrə fəal iqtisadi fəaliyyətdən əldə olunan gəlirlərin bir qisminin vergilər vasitəsilə büdcəyə cəlb edilməsi və ölkədəki mövcud həyat səviyyəsinə görə müxtəlif əhali qrupları arasında tarazlı inkişafa nail olunması bu istiqamətdə yerinə yetirilən mühüm tədbirlərdəndir. Çünki hərtərəfli sosial-iqtisadi inkişaf dedikdə eyni zamanda ölkənin bütün əhalisinin maraqlarını, onların minimum həyat standartlarını zəmanət altına alan bölgü və yenidən bölgü mexanizminin hamı tərəfindən rəğbətlə qarşılanan nəticəsi başa düşülür.

Müasir dövrdə sosial dövlətin qarşısında mühüm vəzifələr vardır. Cəmiyyət inkişaf edib həyat səviyyəsi yüksəldikcə bu vəzifələr daha da dərinləşməkdədir. Artıq cəmiyyətdə hər bir fərdin normal həyat tərzinə qovuşmasına şərait yaradan siyasət yeridilməli, heç kim sosial statusuna və ya əmək qabiliyyətinə görə digərlərindən fərqlənib əziyyət çəkməməsinə çalışılmalıdır. Bütün bunlar isə XXI əsrdə sivil inkişaf yolunu tutmuş ölkələrdə qəbul olunmuş ümumi humanitar dəyərlərə əsaslanan bir həyat standartı, sosial sabitlik zəmanətidir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyasının uğurla yerinə yetirilməsi nəticəsində bu gün ölkəmizdə də bu prinsiplər əsas götürülməklə bütün Azərbaycan vətəndaşlarının sosial müdafiəsini təmin edən islahatlar həyata keçirilməkdədir. İnsanların bazardan asılılığını davamlı olaraq zəifləmək, həyat səviyyəsi standartlarını pillə-pillə dünya standartları səviyyəsinə uyğunlaşdırmaq məqsədilə əməkhaqları və müavinətlərin mütəmadi olaraq artırılması bu islahatların əsas qayəsini təşkil edir.

Ölkəmizdə büdcə xərclərinin böyük bir qisminin elmə, təhsilə, səhiyyəyə, əhalinin sosial müdafiəsinə, sosial infrastruktur sahələrinin yenilənməsinə sərf olunması təkcə büdcədən maliyyələşən əhali qruplarının deyil, ümumilikdə, bütün ölkə əhalisinin də maraqlarına cavab verməkdədir. Belə ki, biznes sektorunda görülən işlərin, istehsal olunan məhsul və xidmətlərin son nəticədə ölkə əhalisinin tələbatlarına yönəlməsi büdcənin də bu istiqamətdəki xərclərinin onların gəlirinə çevrilməsi deməkdir. Ona görə də ölkə başçısının büdcədən maliyyələşən əməkhaqların və müavinətlərin artırılması haqda verdiyi hər qərarı, bütövlükdə, bütün ölkə əhalisinin rifahının yüksəldilməsi yolunda atılmış mühüm bir addım kimi qiymətləndirmək lazımdır.

Dövlətin büdcə xərclərinin izlərini gündəlik həyatımızın, demək olar ki, hər məqamında görsək də, bunların idarə olunması çox mühüm şərtlərə bağlıdır. Özəl sektorun inkişafı ilə vergi ödəyən subyektlərin sayının çoxalması vergitutma bazasının genişləndirilməsi ilə nəticələnir ki, bu da büdcə gəlirlərinin artması deməkdir. Ona görə də geniş büdcəyə malik olmaq üçün bundan əvvəl özəl sektorun da inkişafı qayğısına qalınmalıdır. Bundan başqa, maliyyə orqanları tərəfindən tərtib olunan büdcə proqnozları iqtisadi cəhətdən əsaslandırılaraq mövcud real imkanlara söykənməni də təmin edir. Büdcə gəlirlərinin xərclərlə düzgün tarazlaşdırılması, inflyasiya yaradan xərclərdən qaçınılması da bu sahənin idarə olunmasının mühüm şərtlərindən biridir. Bütün belə şərtlərə ciddi əməl olunması ölkədə maliyyə sabitliyinin qorunub saxlanılması kimi mühüm məsələnin daim olaraq diqqətdə saxlanılması deməkdir ki, bu da bütün ölkədə maliyyə intizamına ciddi əməl olunması ilə əlaqədar müvafiq qurumların vəzifəsi və eyni zamanda hər bir vətəndaşın mənafelərinin qorunması deməkdir. Büdcə dövlətindir. Ancaq hər birimizin burada maraqları vardır və dövlətimizin daim artan büdcəyə sahib olması bizim də sürətlə yüksələn həyat səviyyəmiz və yaxşı yaşayışımız deməkdir. Buna görə də büdcə vəsaitlərinin xərclənməsinə maliyyə nəzarətinin daim yüksək səviyyədə saxlanılması ilə yanaşı, hər bir vətəndaş mal və xidmətlərə görə ödədiyi hər manatın vergisinin dövlət büdcəsinə köçürülməsinə əsl nəzarətçi olmalıdır.

Ölkənin iqtisadi potensialı burada istehsal olunan Ümumi Daxili Məhsulun həcmi, dövlətin iqtisadi imkanları isə onun malik olduğu büdcənin genişliyi ilə ölçülür. Bu gün Azərbaycan Cənubi Qafqazın ən böyük iqtisadiyyatına malik olmaqla yanaşı, Ümumi Daxili Məhsulun həcmi üzrə bir çox MDB və bütün Baltikyanı ölkələri, hətta Bolqarıstan və Xorvatiya kimi Avropa İttifaqı ölkələrini də geridə qoymuşdur.

***Güclü dövlətin güclü ordusu, sağlam əhalisi, təhsilli gəncləri və dəqiq işləyən idarəetmə mexanizmi olmalıdır prinsipindən yanaşsaq, ölkəmizin artan iqtisadi qüdrətinə görə dövlətimizin də bu qədər geniş büdcəyə sahib olmasını obyektiv inkişaf qanunauyğunluğu kimi qiymətləndirmək lazımdır. Təkcə Naxçıvan Muxtar Respublikasının, təqribən, yarım milyard manata yaxınlaşan büdcə xərclərinə baxdıqda dövlətin əhalinin sosial, mədəni tələbatlarının ödənilməsinə, sosial müdafiəsinə, asayişinə və ekoloji təhlükəsizliyinə, nəqliyyat, rabitə, əsaslı tikinti ehtiyaclarına və digər çoxlu sahələrə nə qədər vəsait ayırdığını görürük. Bütün bunlar isə yalnız möhkəm iqtisadiyyata malik olan güclü dövlət idarəetməsinin yaratdığı imkanlar hesabınadır.***

**Əli CABBAROV**

# Seçki marafonu

## 9 oktyabr Azərbaycan Respublikası Prezidentinin seçkiləri günüdür

**Prezident seçkiləri - 2013**

**Azərbaycan Respublikasında seçkilər seçki komissiyaları tərəfindən təşkil edilir və keçirilir.**

**Hörmətli seçicilər!**

Seçkilərin keçirilməsinin təşkil və təmin edilməsini kollegial orqan olan seçki komissiyaları həyata keçirir.

Seçki komissiyaları Azərbaycan Respublikasının Seçki Məcəlləsinin müəyyən etdiyi qaydalara uyğun olaraq təşkil edilir.

Azərbaycan Respublikasında seçki komissiyaları seçkilərin hazırlanmasını, keçirilməsini, səsvermənin nəticələrinin və seçkilərin yekunlarının müəyyən edilməsini, vətəndaşların seçki hüquqlarının həyata keçirilməsini və müdafiəsini təmin etməklə həmin hüquqlara riayət olunmasına nəzarət edir.

Seçki komissiyaları seçki prosesinin həyata keçirilməsində tam sərbəstdirlər və dövlət orqanlarının, bələdiyyə qurumlarının, ictimai-siyasi təşkilatların, eləcə də onların vəzifəli şəxslərinin seçki komissiyalarının fəaliyyətinə müdaxilə etməsinə yol verilmir.

**Dövlət orqanlarının, bələdiyyə qurumlarının, ictimai-siyasi təşkilatların, eləcə də onların vəzifəli şəxslərinin tərəfindən seçki komissiyalarının fəaliyyətinə müdaxilə edilərsə, həmin şəxslər Azərbaycan Respublikasının Cinayət və İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, inzibati və ya cinayət məsuliyyətinə cəlb edilirlər.**

Seçki komissiyaları seçicilərə seçkilərin hazırlanmasının və keçirilməsinin gedişi, nəticələr haqqında məlumat verilməsini dövlət avtomatlaşdırılmış informasiya sistemilə təmin edir.

**Seçki komissiyalarının qəbul etdiyi qərarlar və aktlar müvafiq ərazidə fəaliyyət göstərən dövlət orqanları, bələdiyyə qurumları, ictimai-siyasi təşkilatlar, referendum üzrə təşviqat qrupları, vəzifəli şəxslər və seçicilər üçün məcburidir.**

Eləcə də yuxarı seçki komissiyalarının qərarları aşağı seçki komissiyaları üçün məcburidir.

**Seçkilərin təşkili və keçirilməsi zamanı seçki komissiyaları və onların üzvləri, digər vəzifəli şəxslər öz fəaliyyətlərində aşağıdakı tələblərə əməl etməlidirlər:**

- seçkilərin təşkili və keçirilməsində qanuna əsaslanmalıdırlar, qanunlar tam, bərabər və qərəzsiz tətbiq olunmalıdır;
- qanun çərçivəsində hər bir siyasi partiyaya, namizədə, seçiciyə və seçki kampaniyasının digər iştirakçılarına ədalətli və bərabər münasibət bəsləməlidirlər;
- namizədə, siyasi partiyalara, seçiciyə münasibətdə neytral və qərəzsiz olmalıdırlar;
- hər hansı bir namizədin, siyasi partiyanın dəstəklənməsinə yönəldilən və ya dəstəklənməsi kimi başa düşülə bilən hərəkətlərə yol verməməlidirlər;
- seçkilərin təşkilatçısı kimi xidməti və şəxsi mənafelər arasında ziddiyyətlərə yol verməməlidirlər;
- seçki kampaniyasında iştirak edənlərdən heç bir hədiyyə və digər bəxşişlər almamalıdırlar;
- qanunsuz, onların vəzifələri ilə ziddiyyət təşkil edən göstərişləri icra etməməlidirlər;
- onların vəzifələri ilə ziddiyyət təşkil edən heç bir hərəkətdə (aksiyada) iştirak etməməlidirlər;
- hər hansı bir namizədə, siyasi partiyaya qarşı qərəzli mövqeyin yaranmasına gətirib çıxara bilən fəaliyyətdə (özəl fəaliyyət də daxil olmaqla) iştirak etməməlidirlər;
- seçkilərlə əlaqəsi olan siyasi mübahisə zamanı heç bir mövqe bildirməməlidirlər;
- siyasi mahiyyət daşıyan seçki məsələləri ilə əlaqədar heç bir seçici ilə münasibətdə olmamalıdırlar;
- heç bir siyasi partiyanın rəmzlərini gəzdirməməlidirlər, yaymamalıdırlar, heç bir siyasi partiyaya hansısa başqa yolla münasibət bildirməməlidirlər;
- seçki komissiyalarının iclasları istisna olmaqla, qəbul olunan qərarları öz mülahizələri üzrə şərh etməməlidirlər;
- hər bir qərarın qəbul edilməsinə təsir göstərə bilən məlumatın əldə edilməsini mümkün etməlidirlər;
- qanun əsasında seçicilərə, seçki hərəkətlərinin həyata keçirilməsində iştirak etmək hüququ olan şəxslərə sənədlərlə və məlumatlarla tanış olmaq üçün şərait yaratmalıdırlar;
- məlumatların yığılmasına, araşdırılmasına, birmənalı və aydın anlaşılmaqla müntəzəm dərc edilməsinə şərait yaratmalıdırlar;
- seçicilərin seçkilərdə iştirakı üçün imkan dairəsində bütün tədbirləri görməlidirlər;
- seçicilər tərəfindən seçki kampaniyasının düzgün başa düşülməsi üçün tədbirlər görməlidirlər;
- səs vermək üçün xüsusi şəraitin yaradılması tələb olunan əlil və ya digər fiziki qüsuru olan, uzaq və ya yolu çətin keçilən yerlərdə yaşayan seçicilərin seçkilərdə iştirakı üçün bütün imkanları yaratmalıdırlar.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası***

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Naxçıvan Mətbuat Şurası gənc jurnalistlər arasında "Naxçıvan: inkişafın 10 ili" mövzusunda müsabiqə elan edir

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Naxçıvan Mətbuat Şurası ***"Naxçıvan: inkişafın 10 ili"*** mövzusunda yaradıcılıq müsabiqəsi elan edir. Müsabiqəyə fərdi jurnalist yazıları və publisistik məqalələr, televiziya və radio üzrə müəllif verilişləri təqdim olunur.

***Müsabiqənin keçirilməsində məqsəd***

Müsabiqənin keçirilməsində məqsəd son 10 ildə Naxçıvan Muxtar Respublikasının keçdiyi inkişaf yoluna nəzər salmaq, bu sahədə televiziya və radio verilişlərinin, qəzet materiallarının hazırlanmasına nail olmaq, ümummilli lider Heydər Əliyevin siyasi kursunun muxtar respublikamızda həyata keçirilməsini jurnalist araşdırma materialları ilə təqdim etməkdən və jurnalistlərin bu mövzunun təqdimatındakı fəaliyyətini stimullaşdırmaqdan ibarətdir.

***Müsabiqədə iştirak***

Muxtar respublikanın kütləvi informasiya vasitələrində işləyən və mətbuatda yazılarla çıxış edən hər bir gənc jurnalist, eləcə də yaradıcılıq qabiliyyəti olan şəxslər (orta və ali məktəblərdə təhsil alan gənclər) müsabiqədə iştirak edə bilərlər.

***Müsabiqəyə təqdim olunan yazı və müəllif verilişlərinə aid tələblər***

1. Müsabiqəyə hər jurnalist yalnız bir yazı və müəllif verilişi təqdim edə bilər.

2. Yazı "Şərq qapısı", şəhər və rayon qəzetlərində dərc edilməli, müəllif verilişləri Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən teleradiolarda nümayiş olunmalıdır.

3. Yazıda və müəllif verilişlərində "Naxçıvan: inkişafın 10 ili" müsabiqəsinə təqdim olunmaq üçündür" qeydi göstərilməlidir.

***Müsabiqəyə təqdim olunmuş yazı və müəllif verilişlərinin qiymətləndirmə meyarları***

- mövzunun əhatə olunması;
- jurnalist araşdırması və əsaslandırma;
- materialların orijinal kompozisiya həlli.

***Müsabiqənin keçirilmə vaxtı***

Müsabiqə 1 sentyabr 2013-cü il tarixdən 1 noyabr 2013-cü il tarixədək olan müddətdə (2 ay) keçiriləcəkdir.

Müsabiqəyə təqdim olunan yazılar A4 kağızda çıxarılmış halda (dərc olunduğu qəzetin nüsxəsi ilə birlikdə), teleradio verilişləri isə elektron daşıyıcılarda oktyabrın 31-ə qədər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fonduna təqdim olunmalıdır.

***Müsabiqənin mükafat fondu aşağıdakı kimidir***

*Birinci yer (bir nəfər) – 400 manat*
*İkinci yer (iki nəfər) – 250 manat*
*Üçüncü yer (iki nəfər) – 150 manat*
*Həvəsləndirici yer (iki nəfər) – 75 manat*

***Əlaqə telefonu:(036) 545-65-85***

## Həkim briqadaları kütləvi profilaktik müayinələri davam etdirirlər

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin həkim briqadası Culfa rayonunun Boyəhməd kəndində olmuşdur. Briqada yüksəkixtisaslı həkimlərlə, həmçinin köməkçi müayinə aparatları ilə təchiz edilmişdir. Əhalinin kütləvi profilaktik müayinəsi son illərin quruculuq ünvanlarından biri olan feldşer-mama məntəqəsində həyata keçirilmişdir. Həkim briqadası tərəfindən gün ərzində 18 terapevtik, 8 pediatrik-cərrahi, 6 cərrahi, 18 ginekoloji xəstə müayinə edilmişdir. Aşkar olunan ilkin xəstələrin müvafiq səhiyyə müəssisələrində dərin tibbi müayinələrə cəlb edilməsi məsləhət görülmüş, onlara ambulator kartlar açılmışdır. Əhali arasında ürək-damar, şəkərli diabet, onkoloji, vərəm xəstəlikləri, uşaqların düzgün qidalanması, ana südünün əhəmiyyəti barədə səhiyyə maarifi işi aparılmış, xəstəliklərin profilaktikası ilə bağlı tibbi məsləhətlər verilmişdir.

* * *

Avqust ayı üçün təsdiq edilmiş qrafikə əsasən, Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim briqadası Kəngərli rayonunun Çalxanqala kəndində 42, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim briqadası Şahbuz rayonunun Şada kəndində 6, Kardioloji Mərkəzin həkim briqadası isə Babək rayonunun Şıxmahmud kəndində 46 nəfəri müayinə etmiş, 2 nəfəri dispanser qeydiyyatına almışdır. Göz Xəstəlikləri Xəstəxanasının həkimləri Şıxmahmud kəndində 26, Naxçıvan şəhərindəki 1 nömrəli uşaq bağçasında isə işçi heyət də daxil olmaqla, bütövlükdə, 265 nəfəri profilaktik müayinələrdən keçirmişlər.

Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin tibb işçiləri Culfa rayonunun Dizə kəndində ilkin vərəmə şübhəli olan uşaqları səyyar flüoroqrafik maşınla müayinə etmişlər. Uşaqlar arasında bu xəstəlik qeydə alınmamışdır. Briqada Naxçıvan şəhərinin Əliabad qəsəbəsindəki uşaq bağçasında da səyyar flüoroqrafik maşınla müayinələr aparmışdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Şahbuzda velosiped və şahmat yarışları keçirilib

***"Zərərli vərdişlərə "yox" deyək, həmişə sağlam olaq" devizi altında velosiped yarışı üzrə Şahbuz rayon birinciliyi keçirilib. Yarışda 15 velosipedçi starta çıxıb. İdmançılar finişə qədər 2000 metr məsafəni qət ediblər. Əsl idman mübarizəsi şəraitində keçən yarışda Arif Qasımov finişə birinci çatıb. Elmar Həsənov və Sinan Həşimov isə ikinci və üçüncü yerləri bölüşüblər.***

Digər bir yarış isə Şahbuz rayon ümumtəhsil məktəblərində şahmat dərslərini tədris edən müəllimlər arasında olub. Dairəvi sistem üzrə keçirilən yarışın qalibləri birinciliyə qatılan 23 müəllim arasında müəyyən edilib. Yekun nəticəyə görə, Güney Qışlaq kənd tam orta məktəbinin müəllimi İlkin Baxşəliyev ən yüksək nəticəni göstərib. Kükü və Ayrınc kənd tam orta məktəblərinin müəllimləri Müşfiq Hüseynov ilə Araz Tarıyev isə ikinci və üçüncü yerlərə çıxıblar.

Şahbuz Rayon Gənclər və İdman İdarəsi, Təhsil və Polis şöbələrinin təşkil etdikləri yarışlarda fəxri yerləri tutan idmançılara diplom və mükafatlar verilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Ağbulaqda təlim-məşq toplanışı

Avqustun 31-də Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının təşkilatçılığı ilə qolbol komandası Ağbulaq İstirahət Mərkəzinə təlim-məşq toplanışına yollanıb. Komanda üzvləri iki gün ərzində Azərbaycan Milli Paralimpiya Komitəsinin baş məşqçisi Zahir Abdullayevin iştirakı ilə adıçəkilən idman növü üzrə məşqlərə qatılıblar. Bundan başqa, mərkəzdə komandanın ikigünlük istirahəti də təşkil edilib.

**Xəbərlər şöbəsi**

***Allah rəhmət eləsin***

Babək Rayon Baytarlıq İdarəsinin rəisi Cəlal Hüseynov və idarənin kollektivi Əbil Əbilova, atası **MEHRAC ƏBİLOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Elnur Kəlbizadə
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 3940. Sifariş № 814